# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 258/1** **16 dekabr 2014-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planı və Palata Şurasının 2015-ci il üzrə iş planı barədə**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 13.2-ci bəndinə əsasən hazırlanmış "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasına (2012-2020-ci illər)", "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa və "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə uyğun olaraq, habelə Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planının və Palata Şurasının 2014-cü il üzrə iş planının "2015-2017-ci illər üçün Auditorlar Palatasının iş planının hazırlanması" barədə 8.12-ci və 24-cü bəndlərinin icrası ilə bağlı tərtib edilmiş Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının və Palata Şurasının 2015-ci il üzrə iş planının layihəsini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planı və Palata Şurasının 2015-ci il üzrə iş planı təsdiq edisin (əlavə olunur).

**2.** Auditorlar Palatası Aparatının rəhbərliyinə (Q.Bayramov, N.Talıbov, F.Qarayev) və struktur bölmələrin rəhbərlərinə (M.Abbasov, S.Gülməmmədov, V.Rəhimov, R.Cəfərli) tapşırılsın ki:

- təsdiq edilmiş iş planlarında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icrasını təmin etsinlər;

- iş planlarında müvafiq işlər üzrə plan-proqramların və qrafiklərin Palatanın Şurası yanında Komitələrin rəyləri nəzərə alınmaqla 30 dekabr 2014-cü il tarixə təqdim etsinlər.

**3.** Palatanın Şurası yanında Komitələrin rəhbərlərinə (İ.Bayramov, Y.Salayev, F.Mustafayev, A.Qurbanov, E.İbrahimov, N.Abbaslı, A.Musayev, E.Əliyev, A.Əliyev, L.Bayramova, Z.Hüseynov, F.Əliyev, İ.Əliyev) tövsiyə edilsin ki, komitələrin əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş

planında və Palata Şurasının 2015-ci il üzrə iş planında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsində yaxından iştirak etsinlər.

**4.** "Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planı"nın və Palata Şurasının 2015-ci il üzrə iş planının Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**